

## ELNUR HÜSEYNOĞLU

**Elnur Hüseyn oğlu Süleymanov** 1988-ci ildə Rusiyanın Saratov vilayətində anadan olmuşdur.

2007-ci ildə Şəmkir rayon Nizami Gəncəvi adına Aşağı Morullu kənd tam orta məktəbi bitirmişdir.

2005-ci ildə yazdığı "Sahibin gəlsin" şeiri ilk qələm məhsuludur.

2019-cu ildən etibarən Azərbaycan Yazıçılar Birliyinin üzvüdür.

Bir sıra mətbu orqanlar müəllifin yaradıcılığına müraciət etmişdir.

# YORULAR ADAM

Bezər, bu həyatdan üzər əlini,
Ən ağır dərdlərdən burular adam...
Bilər çarəsizə çarə tapılmaz,
Atar son ümidi, yorular adam!

Fələk oturdanda bədbəxt taxtına,
Səadət gələrmi yazıq baxtına?
Zülmlər yazılar hər bir vaxtına,
Səhrada qum kimi sovrular adam!

Dərdlər gözdən düşən yaşlara taydı,
Zülmətdən gələn səs haydı, haraydı...
Bircə gün üzündə gülüş olaydı,
Nə qədər dərd olar qovrular adam!

Bir kiçik daxmanın çırağı sönmüş,
Gözlədiyi sevgi həsrətə dönmüş...
Qaranlıq otaqda ümidlər ölmüş,
Niyə güvənərkən vurular adam?!





# SONAMSAN MƏNİM

Səni düşünürəm, xəyal edirəm,
Xəyalda gəzişən sonamsan mənim...
Sənsiz yaşamağın bir anlamı yox,
Qəlbimi incidən yaramsan mənim!

Məhbusdur talehim bir dar qəfəsdə,
Ölür ümidlərim, ölür həvəs də...
Ölərkən deyəcəm axır nəfəsdə:
– Həyata keçməyən duamsan mənim!

Məni tənha qoyub çıxıb gedənim,
Çox vaxtsız, vədəsiz qədir bilənim...
Bəxtimi qaraldıb zülmət edənim,
Axı işıq saçan şəmamsan mənim!

Yenə də gözləri nəmdi şairin,
Əzəldən sinəsi qəmdi şairin...
Bu gecə əhvalı dəmdi şairin,
Çünki, ayrı qalan paramsan mənim!

## DURNA SƏSİNDƏ

Yenə payız gəldi, durnalar köçür,
Haçan gəlmişdilər?...İzləməmişdim...
Sən demə, gələnlər bir gün gedərmiş,
Belə bir gedişi gözləməmişdim!

Üzümdən təbəssüm silinib gedir,
Səmada yox olan durna səsində...
Uçub qatar-qatar gözdən itirlər,
Onlar azad olmağın həvəsində!

Yamanca üzüldüm izlədikcə mən,
Kaş ki, kədərimi aparaydılar...
Yoxsa məhv edəcək xəzan küləyi,
Bu dərdi sinəmdən qopardaydılar!

Bu payız fəslini mən heç bir zaman
Qəbul etməmişəm, xoşlamamışam...
Sevənləri bir-birindən ayırıb,
Nədən qəm gətirib?...Anlamamışam!





## ZƏHƏR İÇMİŞƏM

Yorğunam, toxunma mənə, sən Allah,
Qoy batım sükuta, sakit dayanım...
Sinəmdə sağalmaz yaralarım var,
Özüm öz içimdə gizlicə yanım...

Əlini uzaq tut, toxunma mənə,
Yenicə quruyub gözümün yaşı...
Həyat keçiribdir sınaqlarından,
Vaxtsız ağrıtmışam ağrımaz başı!

Fələk zəhər qatıb mənim suyuma,
Mən susuz qaldıqca zəhər içmişəm...
Həyatda nə qədər qəm-kədər varsa,
Onların hamısın görüb keçmişəm...

Yenidən lazımdır dərdlərə düşüm?!
Mənimki sinəmdə dərdlərim çoxdur...
Hələ tapılmayıb çarə onlara,
Qəlbi ağrıdan sinəmdəki oxdur!

# GÜLƏ BİLMƏDİM

Yenə şairə təb kədərdən gəlir,
Yazdığım şeirlər oxunmaz olub...
Göz yaşım tökülür hər sətirimdə,
İslanıb varaqlar oxunmaz olub!

Görən, haçan gəldi bu qəm, bu hicran?
Gözümün yaşını silə bilmədim...
Bəlkə də tərk etdin səbəbsiz məni,
Acılar başladı, gülə bilmədim!

Bu sevgi həddini çox aşıb artıq,
Vaxtından çox əvvəl qəmə bürünüb...
Axtarıram tapanmıram qəlbimi,
Son dəfə sənin əlində görünüb!

Sən daha uzaq dur fikirlərimdən,
Sən mənim ağlımı bulandırırsan...
Mən səni düşünüb yorğun düşürəm,
Zülmlər içində dolandırırsan!





# KƏDƏR DƏLSİN

Xoşbəxt olmaq istəmirəm,
Ehtiyacı olana ver!
Mən səadət gözləmirəm.
Dərddən saçın yolana ver!

İtirdimsə xoş anları,
Nəyə lazım geri gəlsin...
Unutmasın olanları,
Qoy qəlbimi kədər dəlsin!

Məzardısa pənah yerim,
Şaxtası var, çovğunu var...
Qaçır cavanlıq illərim,
Dalda qalan yorğunu var!

Pərvazlanmaz ürək daha,
Ruhum əzgin, canım xəstə...
Bəxtim mənim düşüb aha,
Yaşayıram dar qəfəsdə!

## DARIXDIM YENƏ

Həyat, məni dərdə qurban edirsən,
Sərtləşib qismətim – acıdan acı!
Sanki mən düşmüşəm qəm dəryasına,
Bu insan boğulur, tapmır əlacı!

Yenə yada düşür o xatirələr,
Uzaqdan bir səsə karıxdım yenə...
Elə bil, duyduğum sənin səsindir,
Boylanıb ətrafa darıxdım yenə!

Bilirəm sən yoxsan, gəlməyəcəksən,
Getdiyin yollara baxmağa dəyməz...
Çıxıram eyvana səni görmürəm,
Daha çıxmayacam, çıxmağa dəyməz!

Dinməyir bu ürək sənsiz bir anda,
Səsləyir o səni sənin dalınca...
Yollardan bu gözlər yığılmaz daha,
Əzrail bu canı məndən alınca!





## İLLƏRİN İTKİNİ

Üzər məni intizarın,
Tab etmərəm hər acıya...
Həsrət sənsiz sıxar məni,
Bir az sevinc sər acıya...

Oğrun-oğrun ürkək baxış,
Yıxar məni qıraqlardan...
Süzər məni yad baxışlar,
Sıxar durar uzaqlardan...

Şeirlərimin qadını sən,
Təsvir edib yazaram mən...
Köçürərəm sətir-sətir,
Xəyalında azaram mən...

Mən öldürüb dirildərəm,
Hər gecələr bu sevgini...
Gecdi, qəbul edənmərəm,
Dönmə, illərin itkini!

# DOSTLUQ

Həyatda o kəslə dostluq edərəm,
Onun dosta qarşı diqqəti olsun...
Şərəflə, kişitək ömrünü sürsün,
Başını ucaldan qeyrəti olsun!

Həyatda o kəslə dostluq edərəm,
O vara-dövlətə maraq etməsin...
Yaxşı günümüzdə ürəkdən gülüb,
Dar gündə tək qoyub qaçıb getməsin!

Həyatda o kəslə dostluq edərəm,
Yaxşını əyərək pula satmasın...
O qardaş olmasın nadan olana,
Yaxşını ayırsın, pisə qatmasın!

Həyatda o kəslə dostluq edərəm,
Kişilik beləkdən qanında olsun...
Otursun kişitək məclis başında,
Həqiqət əbədi canında olsun!





# AĞLAYANIMSAN

Səni axtarıram səndən xəbərsiz,
Gözlərim dikilib yollara mənim...
Qara küçələrdə haray salmışam,
Harayım çatırmı onlara mənim?!

Yaman nigaranam yenə bu gecə,
Çox vaxtsız əsibdir payız küləyi...
Qoparıb bağımdan fidan gülümü,
Çarəsiz qoyubdur sevən ürəyi...

Mən çoşub çağlasam coşan dəniztək,
Görən, qaytararmı dalğalar səni?
Qoşulub sən mənim sel sularıma
Yenidən yu apar qəlbimdən qəmi...

Gecələr gəzirsən yuxularımda,
Ruhumun önündə ağlayanımsan...
Çox qəmli görürəm hər gecə səni,
Hər zaman qəlbimi dağlayanımsan!

# İNLƏYƏNİM VAR

Yazardım vərəqdə bütün hissləri,
Necə təsvir edim?...Dinləyənim var.
Mən yaza bilmirəm bütün sözləri,
Oxuyub sonradan inləyənim var!

Qəmli not üstündə danışsam onla,
Köçəri quş kimi qaçar əlimdən...
Əzaba köklənər bütün ömür, gün,
Səadət əbədi uçar əlimdən!

Hələ qabaqdadır kədərli günlər,
Görəsən, sonuna çıxa biləcəm?
Bəlkə də dözməyib həsrət oduna,
Həsrətin qoynunda yanıb öləcəm!

Gərək heç olmazdı sənli günlərim,
Sənsiz günlərimdə üzüləcəyəm...
Sənli günlərimi yaşamaq üçün,
Bir ömür yenidən sürünəcəyəm!





# ASIN MƏNİ

Məğlub olmuş sərkərdəyəm,
Həyat adlı bir döyüşdən...
Yaralandım sağ çıxsam da,
İlk vuruşdan, ilk görüşdən!

Ölüm gözəl rahatlıqdır,
Asın məni, soyun məni...
Ölmək üçün gözəl gündür,
Torpaq altda qoyun məni!

Daha gəlməz səadətim,
Çağırsam da, səsləsəm də...
Üz döndərib çərxi fələk,
Ona ümid bəsləsəm də!

Alınmırsa alınmazmış,
Fələk yorub sıxar səni...
Xoşbəxtlərin sırasından
Silər səni, çıxar səni!